MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

ÇAY MƏDƏNİYYƏTİ: TARİXİ, SOSİAL ROLU VƏ MƏRASİM ƏNƏNƏLƏRİ
Ceyhun İsmayılov 201

İFTARIN SOSİAL VƏ DİNİ ƏHƏMİYYƏTİ
Əhməd Niyazov 211

SEYİD YƏHYA BAKUVİNİN "ŞƏFAÜL-ƏSRAR" ƏSƏRİNDƏ SUFİ ORUCU VƏ
MİR HƏMZƏ SEYİD NİGARİNİN "ÇAYNAMƏ" MƏSNƏVİSİNDƏ ÇAY MƏDƏNİYYƏTİ
ƏSASLI SUFİ ƏDƏBİ
Fariz Xəlilli 217

BAYRAM FENOMENİ: SOSİAL ZAMAN, QONAQPƏRVƏRLİK, PAYLAŞMA VƏ
BARIŞIN RİTUAL MƏDƏNİYYƏTİ
Pərvin Ahənçi 222

ƏNƏNƏDƏN İRSƏ: NOVRUZ MƏRASİMLƏRİ KOLLEKTİV YADDAŞ VƏ
İDENTİKLİK KONTEKSTİNDƏ
Pərvin Ahənçi 243

NOVRUZ OYUNLARI VƏ XALQ ƏYLƏNCƏLƏRİ
Kübra Əliyeva 258

NAR FESTİVALININ KEÇİRİLMƏSİ TARİXİ VƏ GÖYÇAY RAYONUNUN İQTİSADİ,
SOSİAL-MƏDƏNİ HƏYATINDAKI ROLU
Adil Məmmədov 268

NARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ SİMVOLİKASI
Ümidə Məcnunlu 273

"SƏMƏNİ" ADLI QƏDİM VƏ MÜQƏDDƏS MAYE-İÇKİNİN HAZIRLANMA ƏNƏNƏSİNİN
BƏRPASINA DAİR
Kübra Əliyeva 276

SƏDƏF SƏNƏTİ: TARİXİ, MAHİYYƏTİ VƏ TƏTBİQİ
Balabəy Balabəyov 283

AZƏRBAYCAN MUĞAMI HAQQINDA BƏZİ QEYDLƏR
Mehman Mikayılov 286

FOTOLAR 290

AZƏRBAYCAN MUĞAMI HAQQINDA BƏZİ QEYDLƏR

Mehman Mikayılov
Tədqiqatçı, tarzən
Asəf Zeynallı adına Bakı Musiqi Kolleci
https://doi.org/10.30546/19023.2026.1001.448

Dünyada yaşayan hər bir xalqın özünəməxsus musiqi janrı vardır. Bu musiqilər mənsub olduğu xalqın genetik kodu hesab olunur.

Azərbaycan türk xalqının da genetik kodu onun folkloru hesab olunan, bu gün isə dünyada professional musiqi janrı sayılan və xalqımızın mənəvi ruhu olan muğamlarımızdır.

Əsas 7 muğam vardır: 1) Rast; 2) Şur; 3) Segah; 4) Şüştər; 5) Çahargah, 6) Bayatı-Şiraz; 7) Humayun.

Hər muğamın özünəməxsus bir çox şöbələri vardır:

1) Rast - Bərdaşt, Mayə, Uşşaq, Hüseyni, Vilayəti, Dilkeş, Kürdi, Xocəstə (Şikəstə), Mübərriqə, Əraq (İraq), Pəncigah, Rak (sonluq).

2) Şur - Bərdaşt (Əmiri ilə), Mayə, Şur-Şahnaz, Bayatı-Türk, Xocəstə (Şikəstə), Mümərriqə, Əşiran, Simayi-Şəms, Zəminxarə, Hicaz, Sarəng, Qəməngiz, Nişibi-fəraz (sonluq).

3) Segah – Yəcli həsar, Yəcli müxalif, Mayə zabul, Müxalif, Segah, Zil zabul, Zil həsar, Zil müxalif, Segah (sonluq).

4) Şüştər - Zabul (başlıq), Mayə şüştər, Zil şüştər, Tərkib, Böyük məsnəvi, Kiçik məsnəvi (sonluq).

5) Çahargah - Bərdaşt, Mayə (Balu kəbutər), Bəstə-nigar, Həsar, Müxalif, Oərrə, Müxalif, Ouc müxalif, Mənsuriyyə, Məğlub.

6) Bayatı-Şiraz - Bərdaşt (nişibi-fərazla), Möləvi, Mayə, Gəraniyyə, Nişibi-fəraz, İsfahanək, Bayatı İsfahan, Zil bayatı şiraz, Xavəran, Üzzal, Dilruba (sonluq).

7) Humayun - Bərdaşt, Mayə, Bəxtiyari, Feili, Möləvi, Şüştər, Tərkib, Bidad (sonluq).

Bundan başqa doqquz törəmə muğamlar da vardır ki, adları belədir:

1. Mahur hindi;
2. Orta mahur;
3. Bayatı Qacar;
4. Bayatı Kürd;
5. Xaric segah;
6. Mirzə Hüseyn segahı;
7. Qatar;
8. Şahnaz;
9. Rahab.

Dahi Üzeyir Hacıbəyov hər bir muğamı bədii-ruhi cəhətdən xarakterizə etmişdir: “Rast” dinləyicidə mərdlik və gümrahlıq hissi, “Şur” şən, lirik əhval-ruhiyyə, “Segah” məhəbbət hissi, “Şüştər” dərin kədər, “Çahargah” həyəcan və ehtiras, “Bayatı-Şiraz” qəmginlik, “Humayun” isə “Şüştər”ə nisbətən daha dərin bir kədər hissi oyadır.

Bütün bunlardan başqa sayı 300-dən çox olan muğam dəstgahları, şöbələr, guşələr, xallar da mövcuddur ki, durğunluq dövründə (sovet illəri) qadağan olunmuşdur. Bu gün artıq unudulub və yaddaşdan çıxıb. Biz onlardan bir çoxunu bərpa etmişik. Bu gün də tədqiqatımız davam edir: Əfşar, Əbu-Əta, Nəva, Dəşti, Bayatı-Türk, Siyah-ləşkər. Bayatı-İsfahan.

Zərb muğamları Şəhraşub, Kərəmi, Qara Kürd, Bayatı Şikəstə, Cığatayı, Xocəstə, Keşişoğlu, Aşığı, Bağlama, Heydəri, Əşiran və qeyriləri.

Unudulmuş şöbələr və guşələrin sayı 300-dən çoxdur: Kereşmə, Gülzar, Gülriz, Hacıyani, Hacı dərvişi, Molla Nazi, Cidayi, Səlmək, Busəlik, Səfa, Zəngulə, Zirgulə, Həzin, Bədr, Bəng-səbzə, Bidəgani, Bəhri-Nur, Dad, Qifli-Rumi, Əbilqəsb və sair.

Bu muğamlar və muğam şöbələri kədərli olduğuna görə zamanında ifaları və adları qadağan olunub.

Qeyri-maddi mədəni irsin tədrisində layihə əsaslı yeni model: Beynəlxalq Mədəni İrs Ustad Məktəbi

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin qeyri-hökumət təşkilatları üçün qrant müsabiqəsi çərçivəsində "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi tərəfindən həyata keçirilən "Mədəni irs beynəlxalq ustad məktəbində qeyri-maddi mədəni irs dərsləri və sərgisi" layihəsi çərçivəsində qeyri-maddi mədəni irsin müxtəlif istiqamətlərini əhatə edən genişmiqyaslı layihə əsaslı tədris proqramları təşkil olunub. Layihənin əsas məqsədi iştirakçıların qeyri-maddi mədəni irs nümunələrini nəzəri bilik, praktiki fəaliyyət və emosional təcrübə vasitəsilə mənimsəməsini təmin etmək, ənənəvi biliklərin müasir təhsil metodları ilə inteqrasiyasına nail olmaq və ustad-şagird modelinin müasir tədris mühitində tətbiqini gücləndirmək olub.

Layihə çərçivəsində musiqi və ifaçılıq sənəti, şifahi xalq ədəbiyyatı və söz mədəniyyəti, rəqs, oyun və ənənəvi idman mədəniyyəti, ənənəvi tekstil, naxış və simvolika mədəniyyəti, xalq sənətkarlığı və təsviri-dekorativ sənət, mətbəx, çörək və yemək mədəniyyəti, qonaqpərvərlik və sosial ünsiyyət, eləcə də bayram və kollektiv mərasim mədəniyyəti istiqamətləri üzrə səkkiz tematik qrup yaradılıb. Təlimlər əsasən Bakı şəhəri Yasamal rayonunda yerləşən tarixi Zərgərpalan hamamında, bəzi proqramlar isə Bülbülün Memorial Muzeyində keçirilib.

Layihənin təqdimatı və ümumi konsepsiyası. 24 fevral 2026-cı il tarixində keçirilən təqdimat mərasimində layihənin müəllimləri, ekspertləri və təlimçiləri iştirak ediblər. Təqdimatda qeyri-maddi mədəni irsin tədrisinin aktuallığı, layihə əsaslı öyrənmə metodunun üstünlükləri və ənənəvi biliklərin gələcək nəsillərə ötürülməsi mexanizmləri geniş müzakirə olunub. Layihənin ümumi koordinasiyası Məleykə Hüseynova və Dr. Fariz Xəlilli tərəfindən həyata keçirilib.

"Qonaqpərvərlik, süfrə və sosial ünsiyyət mədəniyyəti" tematik qrupu. 10-14 mart 2026-cı il tarixlərində keçirilən ilk tematik qrup üzrə təlimlərdə iftar və çay mədəniyyəti Azərbaycan qeyri-maddi mədəni irsinin mühüm komponentləri kimi araşdırılıb. Təlim proqramı çərçivəsində Prof. Dr. Şikar Qasımov (Bakı Mühəndislik Universiteti) "Qeyri-maddi mədəni irs nədir?" mövzusunda çıxış edərək qeyri-maddi irsin nəzəri əsaslarını izah edib. Prof. Dr. Kübra Əliyeva (AMEA Arxeologiya və Antropologiya İnstitutu) "Xalqımızın süfrə və mətbəx mədəniyyəti" mövzusunda Azərbaycan süfrə ənənələrinin tarixi və semantik xüsusiyyətlərini təqdim edib.

Dr. Ceyhun İsmayılov ("Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu) "Azərbaycanda çay mədəniyyəti", Dos. Dr. Əhməd Niyazov (Azərbaycan İlahiyyat İnstitutu) "Oruc və iftar", Dos. Dr. Ruslan Atakişiyev "Zəkat və islam maliyyəsi", Arzu Soltan Həsənli isə "Qonaqpərvərlikdə

sosial ünsiyyət bacarıqları" mövzularında məruzələrlə çıxış ediblər. Dr. Fariz Xəlilli "Seyid Yəhya Bakuvinin "Şəfaül-Əsrar" əsərində sufi orucu və Mir Həmzə Seyid Nigarinin "Çaynamə" məsnəvisində çay mədəniyyəti əsaslı sufi ədəbi" mövzusunda təqdimat edib. Praktiki hissədə aşbaz-sahibkar Könül İbrahimova tərəfindən çay dəstgahı və iftar süfrəsi üzrə ustad dərsləri keçirilib.

"Bayramlar və kollektiv mərasim mədəniyyəti" tematik qrupu. Bu tematik qrup çərçivəsində Novruz və Nar bayramlarının tarixi, sosial və estetik aspektləri öyrənilib. Prof. Dr. Şikar Qasımov "Qeyri-maddi mədəni irs anlayışı", Pərvin Ahənçi "Bayram nədir? Qonaqpərvərlik, paylaşma və barış mədəniyyətinə təsiri" və "Novruzun tarixi və sosial əhəmiyyəti" mövzularında çıxış edib. Prof. Dr. Kübra Əliyeva "Novruz oyunları və xalq əyləncələri", Dr. Fariz Xəlilli isə "Festival turizmi və regionun inkişafı. Tərəkəmə çərşənbəsi – Axır çərşənbə" mövzusunda məruzə ilə çıxış edib.

Ümidə Məcnunlu "Narın Azərbaycan mədəniyyətində yeri və simvolikası", Ramil Abbəkirov "Nar bayramı: Mədəni yaddaşdan YUNESKO siyahısına", Adil Məmmədov isə "Nar festivalının tarixi və xüsusiyyətləri" mövzularında təqdimatlar ediblər. Praktiki hissədə Məleykə Hüseynovanın rəhbərliyi ilə Novruz süfrəsinin qurulması, səməni hazırlanması və çərşənbə mərasimlərinin səhnələşdirilməsi həyata keçirilib.

"Musiqi və ifaçılıq sənəti" tematik qrupu. 13-17 aprel 2026-cı il tarixlərində Bülbülün Memorial Muzeyində keçirilən təlimlərdə Azərbaycan muğam sənəti və ənənəvi musiqi alətləri öyrədilib. Prof. Dr. Şikar Qasımov Azərbaycan musiqi mədəniyyətinin inkişaf mərhələləri barədə məruzə edib. Dr. Elmira Abasova "Musiqinin fəlsəfi dəyəri", Prof. Dr. Kübra Əliyeva isə "Muğamın tarixi və milli kimlikdə rolu" mövzusunda çıxış edib.

Səxavət Məmmədov "Tarın yaranma tarixi, formalaşması və ifaçılıq sənəti" mövzusunda təqdimat edib və ifaçılıq üzrə ustad dərsi keçirib. Usta Musa Yaqubov tar və kamançanın hazırlanması texnologiyalarını nümayiş etdirib. Dos. Dr. Toğrul Əsədullayev kamança sənətinin tarixi və ifa xüsusiyyətləri barədə danışıb. Şirzad Fətəliyev balaban sənəti üzrə ustad dərsi keçirib. Təlimlərin sonunda Mehman Mikayılov və Ruslan Adgözəlov tərəfindən muğam ifaçılığı üzrə canlı təqdimatlar təşkil olunub.

"Şifahi xalq ədəbiyyatı və söz mədəniyyəti" tematik qrupu. Bu proqram çərçivəsində Dədə Qorqud irsi, aşıq sənəti və Molla Nəsrəddin lətifələri araşdırılıb. Prof. Dr. Aybəniz Rəhimova "Dastan mədəniyyəti və Azərbaycan şifahi ədəbiyyatı", Dos. Dr. Şəmil Sadıqov "Postmodern Azərbaycan romanında "Dədə Qorqud" dastanı və təhrif edilmiş tarix" mövzularında çıxış ediblər.

Prof. Dr. Şikar Qasımov "Aşıq sənətinin tarixi inkişaf mərhələləri", Dos. Dr. Hafiz Kərimov "Ozan-aşıq sənətinin tarixi-mədəni səciyyəsi", Dos. Dr. Fərqanə Zülfüqarova "Azərbaycan aşıq sənətində qadın aşıqlar" mövzularında məruzə ediblər. İskəndər Budaqov saz hazırlanması üzrə ustad dərsi keçib, Nemət Qasımlı, Fəzail Miskinli və Qəlbinur İbrahimli saz ifaçılığı üzrə praktiki məşğələlər aparıblar. Lətafət Əliyeva "Şifahi yumor və söz mədəniyyəti", Arzu Soltan isə "Lətifələrin maarifləndirici və satirik funksiyası. Molla Nəsrəddin obrazı xalq mədəniyyətində" mövzusunda çıxış edib.

"Xalq sənətkarlığı və təsviri-dekorativ sənət" tematik qrupu. Bu qrup çərçivəsində Lahıc misgərlik sənəti, sədəf sənətkarlığı, miniatür və təzhib sənəti öyrədilib. Nəzər Əliyev Lahıc misgərlik sənətinin tarixi və texnologiyası barədə çıxış edib və mis üzərində işləmə texnikaları üzrə ustad dərsi keçirib. Dr. Şəhla Xəlilli "Təzhib sənətinin tarixi və mahiyyəti. Əlyazma mədəniyyəti və bəzək üslubları" mövzusunda təqdimat edib.

Nərmin İmanova "Azərbaycan miniatür sənətinin tarixi və inkişaf mərhələləri" mövzusunda çıxış edib, miniatür rəssamı Pərinisə Əsgərova klassik miniatür nümunələri və rəngləmə texnikaları üzrə ustad dərsi keçirib. Balabəy Balabəyov isə sədəf sənətinin tarixi və tətbiq sahələri barədə məlumat verib.

"Mətbəx, çörək və yemək mədəniyyəti" tematik qrupu. Bu proqram çərçivəsində təndir sənətkarlığı, çörəkbişirmə ənənələri və dolma mədəniyyəti öyrədilib. Ceyran Əsgərova "Azərbaycan mətbəxinin tarixi və əsas xüsusiyyətləri", "Nazik çörəklərin tarixi və regional xüsusiyyətləri: lavaş, katırma, jupka, yufka", eləcə də "Dolmanın Azərbaycan mətbəxində yeri, tarixi və növləri" mövzularında təqdimatlar edib.

Dr. Aida İsmayılova "Təndirin yaranma tarixi və mədəni əhəmiyyəti", Fariz Xəlilli isə "Arxeoloji tədqiqatlarda təndir" mövzusunda çıxış edib. Praktiki hissədə təndirə yapılma texnikaları, xəmirin hazırlanması və dolmanın bişirilməsi üzrə ustad dərsləri keçirilib.

"Ənənəvi tekstil, naxış və simvolika mədəniyyəti" tematik qrupu. 20-24 aprel 2026-cı il tarixlərində keçirilən bu təlimlərdə xalçaçılıq, kələğayı sənəti və ipəkçilik ənənələri öyrədilib. Dr. Fariz Xəlilli "Arxeoloji tədqiqatlarda tekstil nümunələri", Prof. Dr. Kübra Əliyeva isə xalçaçılığın tarixi və xalça məktəbləri barədə məruzə edib. Xalçaçı-rəssam Fəxriyyə Naxış xalça toxuma texnikaları üzrə ustad dərsi keçirib.

Röya Talıblı və Məlahət Talıbova kələğayının tarixi və qadın mədəniyyətində rolu barədə çıxış ediblər. Sulidə Rüstəmova kələğayının xalq ənənələrində və ədəbiyyatda yerini izah edib. Vüqar Quliyev qəliblə naxış vurma texnikası üzrə praktiki məşğələ aparıb. Dos. Dr. Gülzadə Abdulova baramaçılığın tarixi və ipək istehsalının texnologiyası barədə məruzə edib.

"Rəqs, oyun və ənənəvi idman mədəniyyəti" tematik qrupu. Bu proqram çərçivəsində Çovqan, Naxçıvan yallıları və zorxana ənənələri öyrədilib. Dr. Dos. Rauf Bəhmənli "Rəqs, oyun və ənənəvi idman mədəniyyəti anlayışı və tarixi", Ramal Nadir "Milli atçılıq mədəniyyəti və Çövkən oyunu" mövzularında çıxış ediblər. Təlim proqramı çərçivəsində iştirakçılar Binə Atçılıq Mərkəzinə səfər edib, Çovqan üzrə Azərbaycan Liqasının oyunlarını izləyiblər.

Dr. Afaq Hüseynova və Emma Quliyeva yallı rəqsləri üzrə ustad dərsləri keçiriblər. Xəyyam Orucov isə zorxana oyunlarının tarixi, etik dəyərləri və məşq strukturu barədə təqdimat edib və praktiki məşğələlər aparıb.

Layihənin sonunda bütün iştirakçıların layihələri elmi əsaslandırma, texniki icra, estetik quruluş, yaradıcılıq yanaşması, komanda işi və təqdimat bacarıqları üzrə qiymətləndirilib. Təlim proqramları qeyri-maddi mədəni irsin canlı ötürülmə mexanizmini gücləndirib, ənənəvi biliklərin müasir təhsil mühitində tətbiqinə şərait yaradıb və milli mədəni irsin gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verib.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300